ədəbiyyat qəzeti

## Müqəddimə

**Şah İsmayılın şəxsiyyəti və Qızılbaşlıq hərəkatı barədə son dövrlərdə böyük alimlərimiz, sanballı təfəkkür sahiblərimiz dəyərli tarixi əsərlər yazıb, mövzunu akademik səviyyədə böyük peşəkarlıqla araşdırıblar... Şəxsən mən bu böyük alimlərimizin yazdıqlarını təkrar eləmək niyyətindən uzağam, heç buna ehtiyac da görmürəm. Zənnimcə, ədəbiyyat xadimlərinin boynuna düşən mövzunun rasional yox, irrasional tərəfidir...**

**Çünki deyildiyi kimi, böyük alimlərimiz mövzunun rasional - tarixi tərəfini araşdırıb və bu fəaliyyət davam etməkdədir, lakin alimlərimiz mövzunun metafizik-mistik tərəfini şair və yazıçıların, ədəbiyyat adamlarının öhdəsinə buraxır...**

**İstənilən mövzu paralel olaraq həm elmi, həm də poetik istiqamətdə təbliğ olunmasa, onun geniş kütlələrin ürəyinə yol tapması müşkül məsələdir...**

# "Qızılbaş metafizikası,

## Mozaik risalə



İlqar Fəhmi

*Kitabdan fraqmentlər*

* * *

Əlbəttə ki, bu əsərin adını "Qızılbaş risaləsi" və ya "Səfəvi təzkirəsi" də qoymaq olardı. Sırf Şərq adları... Əslində bəlkə də belə daha düzgün olardı. Çünki kitabın quruluşu da məhz Orta əsr Şərq risalələri üslubundadı. İlk baxışdan biri biriylə bağlı olmayan qarışıq qeydlər; məntiqi qırıqlıqlar; gələcəklə bağlı vahimələr; keçmişlə bağlı fəxarətlər; Səfəvi müdriklərinin həyatından, əməllərindən, danışdıqlarından və göstərdiklərindən fraqmentar məlumatlar və bu məlumatlar ətrafında fikir və düşüncələr; müxtəlif şeir parçaları, onların şərhləri; Qızılbaş təfəkkürünün xalqımızın bu günü və sabahı üçün əhəmiyyəti barədə təkidlər və daha nələr-nələr...

Bütün bu bölümlər kitabda müasir rasional məntiqi ardıcıllıqla düzülməyib. Çünki Qızılbaşlıq ürəklərə yol tapanda, Səfəvilik xalqımızın ruhuna-qanına işləyəndə müasir rasional məntiq hələ yaranmamışdı. Məhz bu səbəbdən Səfəviliyin mahiyyətini, Qızılbaşlığın məğzini heç bir rasional məntiqlə tam izah etmək mümkün deyil - Qızılbaş qorçilərinin Çaldıranda qılınc çəkib top-tüfəng üzərinə hücum çəkməyini tam izah etmək mümkün olmadığı kimi...

Qızılbaşlığı rasional məntiqlə tam izah etmək, Səfəviliyi müasir elmi təfəkkürlə anlatmaq mümkün deyil. Heç buna ehtiyac da yoxdur. Xalqımıza Səfəvi dünyagörüşünü, Qızılbaş həyat tərzini müasir elmi-rasional məntiqlə izah etmək, susuzluqdan yanan bir kimsəyə ələkdə su gətirməyə bənzər...

Qızılbaşlığı həm də sevdirmək lazımdır. Sevdirmək üçünsə sevmək mütləqdir. Əgər özün sevirsənsə, deməli, sevgi obyektində sənin ruhuna toxunan, qəlbini sığallayan hansısa məqamlar bəyan edilsə, başqa fərdin də ruhuna toxunmaq ehtimalı var... Mən də bu əsərdə Qızılbaşlıq təfəkküründə öz ruhuma toxunan məqamları üzə çıxartmaq istədim...

Amma yox, düz demədim... Qızılbaş düşüncəsini, Səfəvi təfəkkürünü xalqımıza sevdirməyə ehtiyac yoxdu. Onsuz da sevirik. Bu sevgi yüzillərdir bizim ruhumuzda , qanımızdadır. Ocaq kimi öləziyir, adama elə gəlir ki artıq sönmək üzrədir, ancaq yüngülcə yel dəyən kimi yenidən alovlanır...

Bəli, Qızılbaşlığa olan eşq bizim xalqın ruhunun dərin qatlarında oturub. Bu şübhəsizdir. Sadəcə onun tozunu üfürmək lazımdır ki, yenidən bütün gözəliyi ilə parlasın...

Bu əsər də məhz həmin məqsədə xidmət edir - bu tozu üfürmək, yeni parıltıya nail olmaq. Alınacaqmı, alınmayacaqmı, bunu Allahdan başqa heç kim bilmir...

Bəli, bu üzün müqəddimədən göründüyü kimi, əsər sırf Şərq risalələri üslubunda yazılsa da, adına məhz Qərbdən, daha doğrusu, klassik Yunan fəlsəfəsindən gəlmə iki termin əlavə etmişik. Metafizika və mistika... Sual oluna bilər - Niyə?

Çünki müasir oxucularımızın təfəkkürü bu saat Qərbdən gələn fəlsəfi terminlərlə yüklənib. İstənilən məsələnin mahiyyətini açarkən sırf Şərq terminlərindən istifadə etsək, mütləqdir ki, gərək həmin terminləri izah edək. Bu isə əlavə vaxt aparacaq. Həm də mənim bu əsərdə məqsədim Qızılbaş təfəkkürünü, Səfəvi düşüncəsini ümumbəşəri metafizik-mistik paradiqmanın ayrılmaz bir hissəsi olduğunu göstərmək, analogiyalar aparmaq, tarixən Şərqdə və Qərbdə metafizik müstəvidə gedən proseslər arasında paralelləri və vəhdəti üzə çıxartmaqdır...

Müqəddimədə daha bir məsələyə toxunmağı vacib hesab edirəm... Analitik psixologiyanın atası Karl Qustav Yunqun yazdığı kimi, istənilən etnosun kollektiv təhtəlşüurunun ən dərin qatlarında yerləşən arxetiplərin içində ən əhəmiyyətlisi "özümlük" arxetipidir ki, bu da tamamən insanın ilahi çırpıntıları ilə bağlıdır. Hətta "özümlük" arxetipini birbaşa insan ruhundakı "Tanrı" obrazı ilə də bağlayanlar var.

Ancaq bu arxetip çölün ortasında ucalan dağ kimi tənha deyil. Analitik psixologiya alimləri bu arxetipin ətrafında üç köməkçi arxetip olduğunu da bəyan edir ki, nəticədə insanın kollektiv təhtəlşüurunun ən dərin qatındakı "Özümlük" Arxetipi- Tanrı obrazı sanki dörd sütun üstündə qərar tutan binaya bənzəyir.

Xristian aləmində bu dörd arxetip "Tanrı", onun oğlu İsa Məsih, peyğəmbərlər və müqəddəslər-övliyalardan ibarətdir. İlk üç arxetip ümumbəşəri, son arxetip isə milli arxetip kimi izah olunur. Başqa sözlə desək, ilk üç arxetip millətindən asılı olmadan bütün xristianlar tərəfindən qəbul olunur, lakin hər xalq, hər etnos öz milli mənsubiyyətindən asılı olaraq dördüncü arxetipini - öz övliyalarını, öz müqəddəslərini sevir, müqəddəsləşdirir...

Burdan belə nəticə hasil olunur ki, səmavi-dini düşüncə nə qədər ümumbəşəri elan olunsa da, hər etnos, hər xalq bu düşüncəyə nəsə "özününkü" əlavə etmək istəyir.

Hərçənd bu "özünkülük" əqidənin mahiyyətinə əlavələr gətirmək, fərqləndirmək məqsədi daşımır, sadəcə təhtəlşüur səviyyəsində hər toplum, hər etnos əqidəni öz milli ruhuna yaxınlaşdırmaqçün belə edir...

(Hətta, yaxın keçmişə nəzər salsaq, görərik ki, millətçi düşüncə tərzini qəbul etməyən Sovet dövlətində yaşasaq da, "vahid büt" olan Lenindən sonra öz kommunistlərimizi - Nərimanovu, Əzizbəyovu, hansısa Kuybışevlərdən, Kalininlərdən daha çox sevirdik. Çünki ümumbəşəri hesab olunan Sovet əqidəsinə müəyyən qədər milli don geyindirib həzm eləməyə bizə kömək edirdi. Həm də bu hal təkcə bizdə yox, SSRİ-də yaşayan bütün xalqlar arasında müşahidə olunurdu.)

Bəs Karl Qustav Yunqun dörd sütun üzərində bərqərar olan "Özümlük"-Tanrı Arxetipini Şərq xalqlarına şamil eləsək nə görərik?

Müsəlman-Şərq xalqlarının təhtəlşüurunda həmin arxetip də dörd sütun üzərində bərqərar olub. Sadəcə sütunlar bir qədər fərqlidir. Bizdə - Tanrı, peyğəmbərlər, imamlar və övliyalar-müqəddəslər... Sünni aləmində - Tanrı, Peyğəmbərlər, səhabələr, övliyalar.

Və tarixə diqqət etsək görərik ki, hər toplum, hər etnos Tanrıdan, peyğəmbərdən, imamlardan, səhabələrdən sonra, öz övliyalarını daha çox sevib, daha çox dəyərləndirib. Çünki onları özünə "bir köynək yaxın" bilib.

**Bu arxetip çölün ortasında ucalan dağ kimi tənha deyil...**

Övliyalıq institutu barədə fikirlərimi kitabın içində geniş bildirəcəm. Müqəddimədə məqsədim bu deyil. Sadəcə bildirmək istəyirəm ki, onilliklər boyu bizim xalqın təhtəlşüurunda bu dördüncü arxetip - səmaya ucalan inam binasının dördüncü sütunu olan Övliyalıq institutu məhz Səfəviliklə bağlı olub...

Tarixə diqqət edək. Şeyx Səfiəddinin dünyaya gəlməsindən əvvəlki iki yüz il ərzində əksər Şərq ölkələri əvvəlcə Səlcuq, daha sonra Hülakü dövlətinin tərkibində olmuş və türk xalqları arasında hansısa milli-etnik fərq olmamışdır. Fərq yalnız danışıq ləhcələri arasındaydı. Və məhz bu yüzilliklərdə Əhməd Yəsəvidən tutmuş Cəlaləddin Rumiyə qədər böyük irfan alimləri ümumtürk miqyasında qəbul edilən şəxsiyyətlər idilər...

Sonrakı dövrlərdə isə türk toplumunun müstəqil qardaş xalqlar kimi formalaşması prosesi başlanmışdı və nəhayətdə hər türk xalqı öz övliyalarını, şairlərini, alimlərini, sənətkarlarını ümumi kontekstdən ayırmışdır. (Düzdü, bu xüsusda mübahisələr indiyə qədər davam etməkdədir, qardaş Şərq xalqları hələ də böyük şəxsiyyətlərini bölə bilmir. Təbii ki, dərin düşüncəli insanlar bunu mənasız iş hesab edir, çünki böyük təfəkkür sahibi bütün dünyaya məxsusdur. Lakin etnosun ən ayrılmaz xüsusiyyətlərindən biri şəxsiyyətlərə qarşı olan sahibkarlıq hissidir. İstəsək də, istəməsək də, bunu qəbul etməliyik...)

Qeyd etdiyim kimi, vahid türk toplumunun bölünərək müasir anlamda, türk xalqlarına çevrilməsi mərhələsində övliyalıq institutunun rolu böyük olub. Vahid türk toplumunun hər qolu sanki təriqət mərhələsində öz milli övliyalıq institutunu yaradandan sonra, sanki ilahidən - səmalardan xeyir-dua almış kimi müstəqil xalq kimi formalaşmağa başlayıb. Çünki "milli övliyalıq institutu" dini düşüncə tərzi ilə milli təfəkkürü birləşdirən körpü rolunu oynayıb.

(Hərçənd ki, 20-ci əsrin rasional tarixşünaslığında buna əhəmiyyət verilməyib.)

Bu kontekstdən yanaşanda, müasir Azərbaycan xalqının formalaşmağını da Şah İsmayılın Səfəvi dövlətini yaratdığı dövrlə bağlamaq məncə, düzgün deyil. Əksinə, Azərbaycan Səfəvi dövlətinin yaranmağı Şeyx Səfiəddinin əsasını qoyduğu milli Səfəvi-Azərbaycan övliyalıq institutunun iki yüz illik fəaliyyətinin nəticəsi idi zənnimcə...

Başqa sözlə desək, Səfəvi pirmürşidlərinin fəaliyyəti ona gətirib çıxırtdı ki, xalq yalnız özünə məxsus olan bir səmavi ideya ətrafında birləşdi və nəticədə öz milli dövlətini qurdu...

Buradan daha maraqlı bir nəticə çıxır - hər xalqın formalaşmağında metafizik-səmavi başlanğıcın olması vacibdir. Bu element zahirən iqtisadi-siyasi amillərin arxasında gizlənsə də; bir çox müasir alimlər tərəfindən mövhumat, cəhalət elementi kimi qəbul edilsə də, mövcuddur, var, daxildən öz metafizik təsirini göstərir. Osmanlı dövlətini Bektaşilik, Mövləvilik olmadan təsəvvür etmək mümkünsüz olduğu kimi, Azərbaycan dövlətçilik tarixini də Səfəvi Övliyalıq institutu olmadan təsəvvür etmək mümkün deyil... (misallar çox göstərə bilərik, lakin mövzudan çox aralanmaq istəmirəm.)

İndi isə məsələnin başqa tərəfinə diqqət yetirmək istəyirəm...

Budur, artıq 21-ci əsrin az qala beşdə birini yaşamışıq. 20-ci əsrin rasional məntiqi təfəkkür paradiqması könülsüz də olsa, meydanı ir-



# Səfəvi mistikası"

rasional metafizik düşüncəyə vermək üzrədir... (bunun səbəbləri barədə də fikirlərimizi bölüşəcəyik.)

Bu gün bütün dünyada metafizik-mistik təfəkkür paradiqmasına maraq yüksələn xətt üzrə inkişaf edir. Elə bizdə də Orta əsr Şərq mistiklərinin əsərləri tərcümə edilir, çap olunur, onlar barəsində geniş müzakirələr gedir, müasir insanlarımız o qiymətli fikirlərin təsiri altında öz dünyagörüşünü dəyişirlər. Amma...

Gəlin diqqət edək, görək ki, biz bu xüsusda söhbət edərkən daha çox kimlərdən danışırıq, kimlərdən nümunələr gətiririk, kimləri təbliğ edirik?

Siyahını Əhməd Yəsəvidən tutmuş, Mövlanə Cəlaləddin Rumiyə qədər; İbn Ərəbidən tutmuş Qəzzaliyə qədər; Şeyx Əttardan tutmuş Həllac Mənsura qədər uzatmaq olar. Oxuyuruq, sevirik, qəlbimiz riqqətə gəlir, təbliğ edirik... Lakin belə bir sual doğur - bəs bu siyahıda bizim "özümüzünkü" yoxdurmu?

Əlbəttə, şairlərimizin adlarını çəkə bilərik - Nəsimi, Xətai, Füzuli və başqa şairlərimiz geniş tədqiq olunur. Bu ayrı məsələdir. Lakin şair sözüylə təbliğ edir, övliya həyatıyla...

Belə görünür ki, bu gün sözüylə təbliğ edənlərin arasında özümüzünkülər çox olsa da, həyatıyla, əməliylə təbliğ edənlərin arasında "özümüzünkülər" yoxdur. Niyə? Məgər bizim xalqın nümayəndələri yalnız "söz" deyə biliblər? Dediklərini öz həyatlarıyla, əməlləriylə təsdiq edə bilməyiblər? Hər halda kənardan belə görünür...



Yaxşı, bəs bizim Şeyx Səfiəddin İshaq, Şeyx Sədrəddin Səfəvi? Ümumilikdə Səfəvi Övliyalıq institutu?

Axı, Səfəvilik yüzilliklər boyu xalqımızın təhtəlşüurunda məhz bu boşluğu doldurub, bu funksiyanı yerinə yetirib. Niyə bu gün biz mistika tariximizin bu xəttini diqqətdən kənarda qoymuşuq? (Hərçənd bu müstəvidə Seyid Yəhya Bakuvini də unutmaq olmaz, lakin Xəlvətiyyə təriqəti çox qapalı bir struktura malik olduğuna görə geniş xalq kütlələrinin nəzər dairəsindən gizlində qalıb, xalqımızın kollektiv təhtəlşüuruna çox da möhkəm otura bilməyib. )

Düzdü, "Şeyx Səfi təzkirəsi" Milli Elmlər Akademiyası tərəfindən məhdud tirajla da olsa çap edilib. "Qara məcmuə"ni də internetdə yükləmək mümkündür. Hər iki əsərdə Şeyx Səfiəddin İshaqın və onun tələbələrinin həyatı, əməlləri, fikir və düşüncələri, mistik görüşləri, yaşadıqları metafizik hadisələr barədə çox qiymətli məlumatlar var. Bəs niyə geniş oxucu kütləsinin diqqətindən kənarda qalıb?

Məncə, tənbəlliyimiz burda da öz sözünü deyir. Bu mövzularda Türkiyədə, İranda, Rusiyada çıxan hazır kitabları götürüb dilimizə çevirmək, uyğunlaşdırmaq daha asandı, nəinki özümüzün qədim əski türk dilində yazılmış mətnlərimizlə əlləşmək, köhnə sözlərin mənalarını axtarıb tapmaq, müasirləşdirmək...

Bizsə, əfsus ki, həmişə asana qaçan olmuşuq. Lakin ümid edirəm ki, yaxın vaxtarda bu məsələ dövlət səviyyəsində həll olunacaq, həm "Şeyx Səfi təzkirəsi", həm "Qara Məcmuə" həm də Səfəvi Övliyalıq institutuna aid başqa mövcud kitablar müasir dilimizə uyğunlaşdırılacaq, böyük tirajlarla çap edilib geniş oxucu kütlələrimiz üçün əlçatan olacaq. Ziyalılarımız da bu mövzularda həm yazarkən, həm də söhbət edərkən İbn Ərəbiylə, Cəlaləddin Rumiylə, Həllac Mənsurla bərabər, ən azından Şeyx Səfiəddin İshaqın, Şeyx Sədrəddin Musanın, Şeyx Xacə Əlinin və başqa Səfəvi övliyalarının fikirlərindən də misallar çəkəcək, onların həyatından əməllərindən nümunələr gətirəcəklər. Çünki həm özümüzünküdürlər, həm də insafən, heç adı çəkilən o biri övliyalardan, müdriklərdən geri qalan şəxsiyyətlər olmayıblar...

* * *

Müqəddimənin sonunda bir detalı da mütləq qeyd etməliyəm. Kitabın adında işlənən metafizika-mistika sözlərini oxuyarkən göz önünə Hollivud istehsalı olan mistik trillerlərdəki sehrli fentezi macaralar gəlməsin.

Əsl mistika və metafizika kino deyil, real həyatdır, lakin əfsuslar olsun ki, son yüzilliklərin rasional təfəkkür bu cür hadisələri reallıq müstəvisindən sıxışdırıb çıxardıb. Hətta rasional məntiqlə izah oluna bilməyən məqamlar barəsində təxminən belə tezis də irəli sürülüb - indi bu faktlara izah etmək mümkün deyil, lakin nə vaxtsa dəqiq elmlərin inkişafı elə mərhələyə çatacaq ki, hər şey izah olunacaq...

Məhz buna görə də, bütün mistik faktlar və metafizik reallıqlar öz mövcudluğunu ədəbiyyat və kino sənəti müstəvisində dava etdirməyə məcbur olub. Həm də bu mövcudluq çox eybəcər şəkildə deformasiya olunmuş şəkildə təqdim edilir...

Bəli, biz bu kitabda Səfəvi mistikası, Qızılbaş metafizikası barədə fikir və düşüncələrimizi bölüşəcəyik. Amma nağıl kimi yox, reallıq kimi. Çünki yüzilliklər boyu bizim xalqımız bu reallıqların içində yaşayıb. Real-irreal, fizik-metafizik bölgü olmayıb. Təfəkkür bunları vahid şəkildə qavrayıb, insanlar da bu vəhdətdə yaşayıblar.

Və nə qədər qəribə də olsa, 21-ci əsr sanki yenidən həmin vəhdətə doğru gedir.

Çox asta addımlarla, qorxa-qorxa, ehtiyatla gedir. İllərlə qaranlıq mağarada şam işığında yaşayan insanın günəşin nuruna çıxmağa çalışarkən yaşadığı vahiməni yaşayaraq gedir...

Amma gedir. Və bu metafizik təfəkkür paradiqması ümumbəşəri olmayacaq. Bu da faktdır. Hər toplumun, etnosun özünün mistikası, özünün metafizikası var və olacaq. Mistikası və metafizikası daha dərin, daha zəngin olan xalq 21-ci əsrdə daha güclü daha əzəmətli görünəcək.

* * *

Mövzuya daxil olmaqçün əvvəlcə bəzi məqamları özümüzçün dəqiqləşdirməyə ehtiyac görürəm. Mistika və metafizika nədir? Gəlin diqqət edək. (Əlbəttə ki, dediyim kimi, 20-ci əsrin istehsalı olan ədəbiyyat və incəsənət nümunələrini, filmləri filanı unutmaq şərtiylə)

Yunan köklü Metafizika ifadəsinin mahiyyəti barədə yüzlərlə kitab yazılıb, və oxucular ən azından Vikipediyada bu xüsusda Qərb alimlərinin külli miqdarda maraqlı və eyni zamanda, ziddiyyətli fikirləriylə tanış ola bilərlər.

Metafizika barədə bir cümlə ilə təxminən belə demək olar - fizika olmayan, yəni dəqiq elmlərin rasional düşüncəsi vasitəsiylə dərk edilməsi, empirik yolla təcrübədən keçirilməsi mümkün olmayan hadisələr, reallıqlar, aləmlər, fikir və düşüncələr və sair...

Qarışıq tərif oldu, amma metafizikanın özündə dəqiqlik olmadığına görə, ona verilən dəqiq təriflər həmişə hansı kimlər tərəfindənsə inkar olunub. Hər alimin metafizika barədə öz anlayışı var. Mənsə Qərb alimlərinin fikir və düşüncələrini kənara qoyub Şərq alimlərinə üz tutmaq və bu xüsusda onların fikirlərinə diqqət yönəltmək istəyirəm.

Məlum faktdır ki, Aristotel öz əsərlərində metafizika ifadəsini işlətməyib. Sonradan onun əsərlərini nizama salıb sıralayanlar filosofun fizika-real təbiət haqqında fikir və düşüncələrini topladıqları əsəri "Fizika"; daha sonra ilahi qüvvələr, abstrakt varlıqlar, səmavi ideyalar barədə fikirlərini topladıqları əsəri isə "Metafizika" - yəni, fizikdən sonra gələn adlandırmışlar. (xatırladaq ki o dövrdə ümumilikdə təbiət haqqında bütün elmlər fizikanın bölmələriydi. Yalnız sonradan yavaş-yavaş başqa dəqiq elmlər - kimya, riyaziyyat, coğrafiya və sairləri fizikadan aralandı.)

Aristotelin əsərlərinin dünyaca məşhur şərhçilərindən olan müsəlman Şərq alimləri isə bu bölgü ilə razılaşmamışlar. Misalçün, böyük alim, həkim İbn Sina qeyd edir ki, Tanrı maddi aləmdən əvvəl gəlir, ruh insanın maddi varlığından əvvəl yaranır. Buna görə də bu elmin "Ma bəd at-Tabiyyə" - Təbiətdən sonra gələn (ərəb dilçiləri fizikanı "təbiət" kimi tərcümə etmişdilər.) adlandırmaq məntiqi cəhətdən düzgün deyil. Daha dəqiq olar ki bu elmi "Ma ğəblə ət-Təbiyyə" - fizikadan (təbiətdən) əvvəl gələn - adlandıraq. Yəni əvvəl ilahi müstəvi - Tanrı, ruhlar aləmi, abstrakt varlıqlar olub, bundan sonra bizim yaşadığımız maddi təbiət (fiziki aləm, fizika) yaranıb.

Sonrakı Şərq alimləri bu terminin tərcüməsi və izahı üzərində çox çalışıblar və nəhayətdə "Ma vara at-Tabiyya" - təbiətdən üstün olan, təbiətdən kənarda yerləşən- termini ortaya çıxıb. Yəni bu elm real fiziki təbiətdən kənarda olan ilahi müstəvini, abstrakt varlıqları, onların təzahürlərini öyrənir. Real fiziki təbiətə isə heç bir dəxli yoxdur.

Elə müasir dövrümüzdə ərəb dilində fizika - "fiziya" kimi verilsə də, metafizika "ma vara at-Tabiyya" kimi anlaşılır ki bu da son iki yüz ildə Qərb filosoflarının metafizikaya verdikləri təriflərlə üst-üstə düşür.

Lakin 19-20-ci əsrlər üçün düzgün hesab olunan bu yanaşma da zənnimcə son onilliklərdə öz əhəmiyyətini itirməkdədir. Çünki fizika ilə metafizikanın arasında sədd çəkmək, bir-birindən ayırmaq bəşəriyyəti təfəkkür labirintinə salıb ki, Qərbdə 20-ci əsrin ortalarından başlayaraq müşahidə elədiyimiz mənəvi krizislər də bu labirintdə azıb qalmağın təzahürləridir.

Ərəb dili üzrə mütəxəssis olmadığıma görə, alimlərimiz məni bağışlayar, ancaq zənnimcə, bu termin bu gün həm də "ma beynə at-təbiyyə" - təbiətin arasında, fizikanın içində - kimi tərcümə olunsa daha düzgün olar.

Çünki fizika sahəsində müasir araşdırmalar - ələlxüsus kvant mexanikası, nüvə fizikası sahəsindəki son elmi nailiyyətlər göstərir ki, metafizika real fiziki aləmin-fizikanın həm əvvəlində, həm arxasında, həm üstündə, həm də içindədir.

Gəlin okeanın ortasında yerləşən gözəl yaşıl bir ada təsəvvür edək. Kimsə deyir ki, adanın qabağı və arxası sudur, çünki okeanın içindədir; kimsə deyir ki, adanın üstü də sudur, çünki yuxarıdakı buludlardan yağışlar yağır... Bu ada fizika, ətrafdakı sular isə metafizikadır. Son iki üz ildə bizə izah olunub ki, su yalnız adanın ətrafındadır, adanın içində su yoxdur. Okean ilə adanın dəqiq sərhəddi var ki, bu da sahil xəttidir.

Yaxşı, bəs əgər adada cürbəcür bitkilər, ağaclar, güllər, daha sonra müxtəlif canlılar - heyvanlar, quşlar varsa, bəs onların orqanizminin 80 faizini təşkil edən suyu niyə unuduruq?

Onda belə çıxır ki, su adanın sadəcə yan-yörəsində, üstündə, altında deyil, hər yerindədi... Su ilə adanın sərhədi yoxdur.

Fizikada eynən bu cürdür. Rasional, empirik elmi yollarla dərk etdiyimiz təbiətin- fizikanın hər zərrəsinin dərinliyində rasional ağılla dərk edə bilmədiyimiz metafizik mətləblər yatır. (Kvant mexanikası, nüvə fizikası ilə bağlı bölümdə bu xüsusda fikirlərimizi geniş yazacağıq.)

Deməli metafizika əslində hər şeydir. Bizim rasional məntiqlə dərk edə bildiyimiz və dərk edə bilmədiyimiz hər şey... Deməli fizika əslində metafizikanın içində sadəcə kiçik bir sahədir. Çünki son yüzilliklərdə insan əqlinin təbiət üzərində təntənəsi nə qədər ucadan bəyan edilsə də, əslində dərk edə bilmədiklərimiz dərk edə bildiklərimizdən qat qat çoxdur. Bu faktdır.

* * *

Səfəviliyə qayıdaq. Əvvəldə qeyd etdiyim kimi, bu vaxtacan yazılan əsərlər daha çox mövzunun fiziki-real tərəfini əhatə edib. İyirminci əsr üçün bu yanaşma kifayət edirdi. Lakin biz artıq 21-ci əsri yaşayırıq və təfəkkür paradiqmaları ləng də olsa dəyişmək üzrədir. Deməli, istənilən mövzunun real fiziki tərəfiylə bərabər, metafizik irrasional tərəfi də mümkün qədər geniş araşdırılmalıdır.

Toplumun kollektiv təhtəlşüurunu qidalandıran yeni ideyaların, yeni MİF-lərin yaranmağı üçün metafizik, irrasional tərəf mütləq vacibdir. Metafizik məqamlar ayrı-ayrı daşların bir-birinə hörülüb evin yaranmasına səbəb olan palçıq kimi, sement kimi vacib atributdur. Tarixi şəxsiyyətlər, tarixi hadisələr barədə real tarixi faktlar əgər irreal, metafizik məqamlarla tamamlanmasa, köhnə arxetiplər dirilməz, yeni miflər yaranmaz. Toplum isə isə mifsiz yaşaya bilmir. Əgər öz doğma miflər istifadəsiz qalıb çürüsə, toplum kənardan gələn mifləri öz təhtəlşüuruna dolduracaq ki, bu da nəticədə xalqın, etnosun içdən dağılmasına gətirib çıxaracaq.

Haqqında danışdığım bu iki fəaliyyət istiqaməti bu sahədə bir birini tamamlayır, ilahi vəhdət yaradır. Yerlə göyün, ağılla hissin vəhdəti kimi...

Ələlxüsus unutmayaq ki, bizim xalqın kütləvi təhtəlşüurunun sütunu olan Səfəviliyin də, qədim dövrlərdəki bir çox əqidə cərəyanları kimi kifayət qədər geniş metafizik-mistik mif bazası vardır. Lakin məhz bu məqam həmişə diqqətdən kənarda qalıb, rasional elm tərəfindən ciddi qəbul edilməyib. Bəlkə kimlərsə diqqət edib, lakin cəhalət və mövhumatda ittiham edilməkdən çəkinərək bu məqamların üstündən keçib.

Mənsə belə ittihamlardan çəkinmirəm, çünki akademik sahədə çalışan alim deyiləm, sadəcə yazıçıyam və sırf rasional-elmi təfəkkür sahibi olan oxucular da mənim fikir və düşüncələrimdə irreal, mifik, mistik, qeyri-elmi məqamlar görsələr, uzağı bütün bunları yazıçı təxəyyülünün ayağına yaza bilərlər.

**P.S.** *Əsərin başlığındakı "mistika" sözünün zənnimcə, çox da geniş izahına ehtiyac yoxdur, çünki bu termin altında adətən metafizik hadisələrin fiziki aləmdə təzahürləri başa düşülüb. Səfəvilər tarixi isə belə təzahürlərlə çox zəngindir ki, bu əsər də məhz həmin məqamları üzə çıxarmağa xidmət edir.*

Müqəddimənin sonu...

*Ardı var*